**Təsdiq edilmişdir:**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_______________

03.06.2024-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Risklərin təhlili" işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı**

| Sıra №-si | Risk kateqoriyaları | Risklər | Risklərin təzahür əlamətləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| **Dünya İqtisadi Forumunun Qlobal Risklər Hesabatı** | | | | | | | |
| 1. | Sosial risklər | Yoluxucu xəstəliklərin yayılması | Xəstəliklərə səbəb olan virusların, parazitlərin, bakteriyaların və s. kütləvi sürətlə yayılması nəticəsində insan tələfatı və iqtisadi tənəzzül | Həyat itkisi və iqtisadi problemlərlə nəticələnə biləcək epidemiya halının yaranması riski ilə bağlı təhlillərin aparılması və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2024 | Səhiyyə Nazirliyi | T.Xəlilova |
| | | Məcburi miqrasiya | Davamlı ayrı-seçkilik, təqiblər, iqtisadi tərəqqi imkanlarının olmaması, daxili və ya dövlətlərarası münaqişələr, təbii fəlakətlər və s. kimi səbəblərdən əhalinin daxili və ya sərhədlər-arası məcburi yerdəyişməsi | Dövlətlərarası münaqişələr və təqiblər nəticəsində əhalinin miqrasiyası vəziyyətinin təhlil olunması, nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2024 | Dövlət Miqrasiya Xidməti | K.Hacıyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2. | Ekoloji risklər | Təbii ehtiyatların böhranı (qida, su) | Kritik təbii ehtiyatların düzgün idarə edilməməsi, iqlim dəyişikliyi (o cümlədən quraqlıq, səhralaşma) və ya müvafiq infrastrukturun olmaması səbəbindən meydana gələn qida və su çatışmazlığı | Sudan istifadə üzrə göstəricilərin təhlili əsasında müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | A.Seyidova |
| | | Təbii fəlakətlər və kəskin hava şəraiti | Ekstremal hava hadisələri və hava ilə əlaqəli olmayan təbii fəlakətlər nəticəsində insan həyatının itirilməsi, ekosistemin zədələnməsi, mülkiyyətin məhv olması və maliyyə itkisi | Torpaq (zəlzələ, vulkan), su (daşqın), atmosfer (fırtına) əsaslı fəlakətlərin baş vermə ehtimallarının təhlil olunması və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2024 | Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | C.Camalov, A.Seyidova |
| 3. | Texnoloji risklər | Kibertəhlükə | Kibermüharibə, kibercasusluq və kibercinayətkarlıq məqsədilə kiber silah və vasitələrdən istifadə edilməsi | Fərdi məlumatların oğurlanması və məlumat dələduzluğu üzrə mövcud vəziyyətin təhlil olunması və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.09.2024 | Daxili İşlər Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | İ.Əliyev, S.Rəsulov |
| 4. | İqtisadi risklər | Yaşayış böhranı | Əhalinin ehtiyacı olan zəruri malların qiymət artımının onların real gəlirləri ilə uyğun olmaması səbəbindən həyat səviyyəsinin aşağı düşməsi | Ərzaq mallarının qiymət artımı və əhalinin real gəlirlərinin uyğunluğu ilə bağlı təhlilin aparılması və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2024 | İqtisadiyyat Nazirliyi | M.Həsənov |